

*Hacı HƏSƏNOV,*
*tarix üzrə fəlsəfə doktoru, professor, elm sahəsi üzrə Dövlət Mükafatı laureatı*

*(Əvvəli ötən sayımızda)*

M.Ə.İsmayılov çox geniş spektrdə görmə qabiliyyəti, müxtəlif problemlərin qiymətləndirilməsində özünəməxsus mövqeyi və güclü elmi təfəkkürü olan redaktordur. O, bu işə elmi yaradıcılığının lap ilk dövrlərindən başlamışdır və ötən müddət ərzində Şimali Azərbaycanın yeni tarixi üzrə çıxmış sanballı əsərlərin əksəriyyətinin redaktəsində yaxından iştirak etmişdir. Elə təkcə akademik Ə. S. Sumbatzadənin "1837-ci il Quba üsyanı" (B., 1961), "XIX əsr Azərbaycan sənayesi" (B., 1964), "XIX-XX əsrin əvvəllərində" adlı məruzə ilə çıxış etmişdir. 1960-1980-ci illərdə onun müxtəlif əsərləri ingilis, fars, kürd və s. dillərdə nəşr olunaraq Azərbaycan tarixinin beynəlxalq və ümumittifaq səviyyəsində təbliği sahəsində az rol oynamamışdır.

Artıq yuxarıda qeyd olunduğu kimi, M.Ə.İsmayılov əmək fəaliyyətinin ilk vaxtlarından respublikanın müəllim, tarixçi kadrlarının hazırlanması işində yaxından iştirak etməyə başlamışdır. Müxtəlif vaxtlarda o, ADU-da Azərbaycan tarixi üzrə mühazirələr oxumuş, ixtisas kursları aparmışdır. Lakin onun bu sahədəki fəaliyyəti ilk növbədə respublikanın tarixçi kadrlarının hazırlanması işi ilə bağlıdır. Həm Azərbaycan EA Tarix İnstitutunda "Azərbaycanın yeni tarixi" şöbəsinin rəhbəri (1952-1954-cü və 1967-ci ildən ömrünün sonunadək) kimi, həm də həmin institutun elmi işlər üzrə direktor müavini (1952-1967-ci illərdə və 1983-cü ildən ömrünün sonunadək) kimi respublikanın tarixçi kadrlarının yetişdirilməsi işində böyük xidmətə malikdir. Bu dövrdə bu elmi müəssisədə və bilavasitə onun şəxsi rəhbərliyi və fəal iştirakı ilə onlarla elmlər namizədi və doktorları yetişdirilmiş, neçə-neçə əsərlər hazırlanmışdır. Hal-hazırda respublikanın, demək olar ki, bütün ali tədris və elmi-tədqiqat müəssisələrində, ölkənin bir sıra şəhərlərində onun rəhbərliyi altında yetişib püxtələşmiş mütəxəssislər çalışırlar.

Onun elmi rəhbərliyi altında 30-dan çox dissertasiya müdafiə olunmuşdur. O, ölkənin Bakı, Moskva, Tbilisi və s. şəhərlərində müdafiə olunmuş qırx beşdən artıq namizədlik və doktorluq dissertasiyalarına rəsmi opponentlik etmişdir.

Elə bu xidmətlərinə görə M.Ə.İsmayılov 1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmiş, 1990-cı ildə isə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" kimi fəxri ada layiq görülmüşdür.

Ötən əsrin 80-ci illərinin ortalarında xalqımızın soy-kökü, etnogenez məsələləri ətrafında bütün Sovetlər İttifaqında geniş əks-səda, müzakirələr və mübahisələr doğurmuş proseslərin təşəbbüsçüsü və əsl lideri də - bunu qorxudan deyirəm, - Mahmud müəllim idi. O isti yaz günlərində bu kiçik boylu möhtəşəm insanın Akademiyanın əsas binasındakı ağzınadək adamla dolu olan II mərtəbəsindəki zalında öz həmfikirləri - rəhmətliklər Süleyman Əliyarov, Aydın Məmmədov, Dilarə Əliyeva və b. ilə birlikdə Leninqraddan (indiki Sankt-Peterburqdan gəlmiş məşhur sovet alimləri Lifşits, Mühəmməd Abdukadiroviç Damdabayev, rəhmətlik İqrar Əliyevlə iki gün ərzində necə dördör döyüşdüyünü, qəzəbindən nadir hallarda tüstülədirdiyi siqaret əlində İnstitutumuzun koridorunda qonaq M.A. Damdamayevdən incimməməsini xahiş etməsi və tərəfi müqabilindən eyni xahişi eşitməsi bu gün də gözlərimin önündən getmir.

Yuxarıda deyilənlərin hamısı Mahmud müəllimin fəaliyyətinin - əsası da olsa - ancaq bir tərəfini, alimlik və təşkilatçılıq cəhətini əhatə edir. Lakin o, eyni zamanda fəal ədəbi və ictimai xadimdir. Bu cəhətləri qeyd etmədən onun şəxsiyyətinin bütöv və dolğun portretini yaratmaq olmaz.

Hətta Mahmud müəllimi tanıyanların çoxu belə, yəqin bilmir ki, bu ağsaqqal və nüfuzlu alimi lap gənc yaşlarından ədəbi yaradıcılığa, özü də şeirlə, başlamışdır. Bir vaxt öz qələmini şeirdə sınayan gənc şəxs, çağdaşAzərbaycan tarixi romanının seçilib-sayılan müəlliflərindən biridir. Onun qələmindən "Ağ yapıncı", "Xaqani", "İl üçün yan", "Sənin ulu baban", "İki od arasında", "Qara Yusif" və "Uzun Həsən" kimi ciddi, bir-birindən maraqlı tarixi romanlar çıxmışdır. Onun "Ağ yapıncı" romanı əsasında yazdığı pyes Şəki Dram Teatrında səhnələşdirilmişdir.

Onun hekayə və romanları təkcə ədəbiyyat həvəskarlarının diqqətini cəlb edən bədii əsərlər deyil, həm də geniş oxucu kütləsi üçün bu və ya digər dövrün tarixi və etnoqrafiyası, xalqımızın tarixi inkişafının öyrənilməsi üçün əvəzolunmaz mənbədir. Onun romanlarını səhifələdikcə oxucu bədii həzz almaqla yanaşı, Tomiris ana ilə görüşür, qədim Azərbaycan tayfaları arasında dolaşır, Xaqani dövrünün ədəbi-siyasi mühitinə baş vurur, Azərbaycanda milli-suverən dövlət quruculuğunun tarixini mərhələlərlə izləyir, xalqımızın milli-azadlıq mübarizəsi ilə tanış olur.

Mahmud müəllim eyni zamanda fəal ictimai xadimi idi . Xalqımızın həyatı ilə bu və ya digər dərəcədə bağlı olan istənilən hadisə, respublikanın sosial və siyasi həyatına toxunan istənilən məsələ onun diqqətindən kənarda qalmır. Dağlıq Qarabağ ətrafında hadisələrin başlandığı gündən etibarən respublikada əmin-amanlığın bərpa edilməsi, xalqımızın ünvanına böhtan yağdıranlara layiqli cavab verməyə, hadisələrin əsl səbəb və mahiyyəti barəsində obyektiv həqiqəti hamıya çatdırılması üçün qüvvəsini əsirgəməmişdir. O, respublikanın vəziyyəti kəskin olan rayonlarını gəzərək, müxtəlif şəhərlərdə keçirilən görüş, dəyirmi masa və konfranslarda həqiqəti car çəkir, müxtəlif rəsmi və qeyri-formal mətbuat orqanlarının səhifələrində günün bu əzablı probleminə həsr olunmuş rəngarəng məqalələrlə çıxış etmişdir. Xalqımıza qarşı yönəldilmiş böhtanların puçluğunu, soydaşlarımıza qarşı törədilmiş qeyri-insani cinayətlərin səbəb və mahiyyətini faş edən sənədlərin toplanmasında, təhlil və çap olunmasında yorulmadan çalışmışdır. Elə təkcə onun 1989-cu ildə nəşr olunmuş "DQMV ətrafındakı hadisələr - saxtalaşdırıcıların əyri güzgüsündə" adlı sənədlər toplusunu və onlarla bağlı məqaləsini göstərmək kifayətdir.

Ümumiyyətlə, 200 -dən artıq elmi işin, o cümlədən 150 monoqrafiya, kitabça və elmi məqalənin, 40-dan artıq elmi-kütləvi məqalənin müəllifi, 30-a yaxın kitabın redaktoru olan istedadlı, görkəmli alimimiz və ağsaqqalımız, Azərbaycan MEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor, neçə-neçə orden və medallarla təltif olunmuş müharibə və əmək veteranımız ömrünün sonuna yaxın ağır xəstələnənədək daim iş başında idi. Qələmini əsl süngüyə çevirib elmi həqiqətlər və Vətən-Xalq-Dövlət mənafeləri uğrunda yarulmadan çalışırdı. O, sönməz enerji ilə el-obamızın tarixini öyrənir və öyrədir, xalqımızın dərd-sərini düşünüb-daşınır, böyük gücü və geniş imkanları daxilində sabahımıza uzana biləcək yollardan ən əlverişlisini seçmək naminə yorulmadan çalışır, əlləşir, vuruşur.



# ÇAĞDAŞ AZƏRBAYCAN TARİXŞÜNASLIĞININ BANİLƏRİNDƏN BİRİ HAQQINDA QISA HEKAYƏT

"XIX-XX əsrin əvvəllərində Azərbaycan tarixşünaslığı" (B., 1987) əsərlərini xatırlamaq kifayətdir. Kitablarının redaktəsini ona etibar etmiş müəlliflər sırasında Z. İ. İbrahimov, Ə. N. Quliyev, F. M. Əliyev, İ. A. Talıbzadə, M. Ç. İbrahimov və s. kimi ustad tarixçilərimizin olması da onun redaktorluq məharətinin nə qədər yüksək qiymətləndirildiyinə sübutdur.

M.Ə.İsmayılov əsərlərlə yanaşı müxtəlif mənbələrin (məsələn, Ə. b Cavans?ir. Qarabağ xanlığının siyasi tarixinə dair, B., 1961 və s.), tarixi-etnoqrafik əsərlərin (A. N. Mustafayev. XIX əsrin sonu-XX əsrin əvvəllərində Şirvanın maddi mədəniyyəti, B., 1977; Azərbaycan etnoqrafiyası, B., 1981 və s.) redaktəsində də yaxından iştirak etmişdir.

M.Ə.İsmayılov beynəlxalq aləmdə Azərbaycan tarixinin təbliği sahəsində böyük iş aparmış, müxtəlif beynəlxalq ali elmi məclislərdə tarix elmimizi ləyaqətlə təmsil etmişdir. Onun vətəndaş və tarixçi səsi Roma, Ankara, Leninqrad ( Sankt - Peterburq), Moskva, Tbilisi, Sverdlovsk şəhərlərində keçirilmiş elmi məclislərin uca kürsülərindən dəfələrlə səslənmişdir.

1966-cı ildə sovet və İtaliya tarixçilərinin Romada keçirilmiş beynəlxalq qurultayında "XIX əsrin sonu - XX əsrin əvvəllərində Zaqafqaziyanın aqrar quruluşu" mövzusunda çıxış etmiş, 1970-ci ildə iqtisadçıların Leninqradda keçirilən V və tarixçilərin Moskvada keçirilən XIII beynəlxalq konqreslərinin iştirakçısı olmuşdur. O, 1990-cı ildə Türkiyədə keçirilmiş I Beynəlxalq Azərbaycan konqresində iştirak etmiş və "Azərbaycan XIX-

Heç zaman bitirmək istəmədiyim bu hekayətin bir sonucunu yazmağa özümü vadar edərək onun vəfatı və dəfnini xatırlamaq istəyirəm:

Dərin, "Zübdət üt-təvarix"li Gəncə köklərinin Şəkidə məskən salmış ailələrdə Ələbbas kişinin ailəsində 1920-ci il sentyabrın 1-də işıqlı ünyaya göz açmış Mahmud bəy 1934-cü ildən yaşadığı Bakımızda 2001-ci il sentyabrın 1-də Tanrının dərgahına ucaldı.

Akademiyada çalışdığım 45 il ərzində çox yas mərasimlərinin şahidi olmuşam. Elə adam olub ki, dəfnində İnstitutdan və şöbəsindən bir nəfər də getməyib, eləsi olub ki, lap yuxarı dairələrdən yas mərasiminə gedişi təmin etmək üçün göndərilmiş lüks avtobuslar bomboş qalıb.

Amma iki Mahmudun dəfnini də görmüşəm: AMEA-nın prezidenti akademik Mahmud Kərimov dünyasını dəyişəndə bütün İnstitutların əməkdaşlarına tapşırılmışdı ki, akademiyaya gəlməsinlər, amma əsas binanın önündən meydan və bağ sıx polis kordonunu hansı yolla adlaya bilmiş akademiya əməkdaşları ilə dopdolu idi.

AMEA-nın müxbir üzvü, mənim ustadım Mahmud İsmayılov avqustun 16-da, yəni akademiya əməkdaşlarının 90-95%-nin məzuniyyətdə, əksəriyyətinin qapqaynar Bakıdan kənarda olduğu vaxtı bu dünyanı tərk etmişdir. Amma az qala 50 il başçılıq etdiyi şöbənin bütün əməkdaşları, Tarix İnstitutu kollektivinin əksər hissəsi, eşidib bilənlərin demək olar ki, çox böyük əksəriyyəti bu böyük insanı o dünyaya uğurlamaq üçün onun qapısına yığışmışdı.

**Məkanın behişt olsun, ustad!**